***UOT-811.521.1***
***Səhifə: 44-49***
*https://doi.org/10.59849/2663-8967.2025.1.44*

***Baba Məhərrəmli***
***AMEA Nəsimi adına Dilçilik İnstitutu***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# TÜRK DİLLƏRİNİN KÖK MORFEMLƏRİNDƏ ETİMOLOJİ UZANMA PROBLEMİ

## XÜLASƏ

Araşdırmada türk dillərində ən mübahisəli hesab olunan ilkin uzanma və yaxud da bəzi ədəbiyyatlarda "etimoloji uzanma" adlandırılan fonetik hadisənin derivatoloji proses olması sübuta yetirilir. Adətən tədqiqatlarda qədim türk dillərində ilkin uzanma prosesinin mövcudluğu məsələsinə skeptik yanaşılır. Çox zaman bu prosesin sonradan yarandığı ehtimal olunur. Ancaq bizim araşdırmada sübut olunur ki, qədim türk dillərində etimoloji uzanma prosesi mövcud olmuşdur və bu proses söz yaradıcılığı vasitəsi kimi də özünü göstərmişdir. Məqalədə bu problemin tədqiqi tarixinə ekskurs edilir, müxtəlif türkoloqların həmin məsələ haqqındakı subyektiv fikirləri təhlil olunur. Araşdırmada bu nəticəyə gəlinir ki, etimoloji uzanmanı yaradan səbəb ekstralinqvistik səbəblər deyil, türk dillərinin daxili fonosemantik inkişafıdır. Yəni tədqiqatda geniş şəkildə şərh olunan dil faktları sübut edir ki, qədim türk dönəmində ilkin söz köklərində qrammatikləşmənin, konkret desək, şəkilçiləşmənin mövcud olmadığı dövrdə həmin proses kombinator hadisələr kimi, eyni zamanda söz yaradıcılığı prosesində də aktiv rol oynamışdır. Qədim türk dövründə söz köklərini yeni leksemə çevirən hadisələrdən biri də məhz ilkin uzanma hadisəsidir.

***Açar sözlər:****türk, dil, etimoloji, uzanma, söz yaradıcılığı.*

**Giriş.** Tarixən türk dillərində kombinator xarakterli bir çox fonetik hadisələr paralel olaraq söz yaradıcılığı üsulları kimi də mövcud olmuşdur. Çünki qədim türk dilində derivatoloji proseslərin şəkilçiləşməyə qədər olan zamanda məhz kombinator hadisələr, yəni fonetik səciyyəli proseslər yeni sözlərin yaranmasına səbəb olmuşdur. Bu hadisə türkoloji ədəbiyyatlarda çox zaman *etimoloji uzanma* termini ilə də ifadə olunur.

**Etimoloji uzanma:** Türkologiyada bu hadisənin səbəbini bəziləri hecanın ixtisarı, bəziləri yad dillərin təsiri ilə, bəziləri qədim dilin aksent xüsusiyyətləri ilə, bəziləri reduksiya, bəziləri isə omonimliyin yaranması ilə izah edirlər. İndiyə qədər türkologiyada etimoloji uzanmanın mənşəyi hələ də dəqiq müəyyənləşdirilməmişdir. Fakt isə ondan ibarətdir ki, qədim dövrdə kök sözlərdə uzanma hadisəsi həm kombinator hadisə kimi, həm də söz yaradıcılığı üsulu kimi çıxış etmişdir. Bu hadisə bəzən kök sözlərdə omonimliyin və sinkretikliyin yaranmasına səbəb olmuşdur. Müasir türk dillərində ilkin uzanmanın izləri qorunmuşdur. Məsələn: Azərb. *ad*, dolq. *aat* "ad", Azərb. *aş-* "aşmaq", dolq. *aas-* "aşmaq", qaq. *ara* "məsafə" - *aara-* "axtar", *aaz-* "azmaq" - *az* "az bir şey", *kaar* "qar" - *kar-* "palçıq qarışdırmaq", tof. *sarı* "yuxarı" - *saarı* "çay qalığı". G.Klausonun etimoloji lüğətində də təkhecalı kök sözlərin bir qismi uzun variantda verilir: *kaar-* "qarışdırmaq", *kaan* "qan" [19, s.629] və s. Əlbəttə, bu tipli nümunələrdə ilkin uzanmanın məna fərqləri yaratması söz yaradıcılığı kimi düşünülə bilməz. İlkin uzanma o sözlərdə söz yaradıcılığı üsulu kimi çıxış edir ki, həmin sözlərin mənşəyi eynidir. Məsələn, tuv. *kat* "qayınana" - *kāt* "arvad", yak. *bay* "varlı" - *baay-* "varlanmaq". L.A.Pokrovskaya qeyd edir ki, "*müasir qaqauz dilində saitlərdə ilkin uzanma bir neçə kök sözdə qorunmuşdur"* [12, s.29-30]. V.İ.Rassadin tofalar dilindəki uzanma hadisəsini ikinci uzanma hadisəsinə aid edir. O, həmin uzanmanın əsas səbəbinin söz köklərində intervokalda samit səslərin düşməsi olduğunu göstərir [13, s.32-36].

Türkologiyada indiyə qədər mübahisəli hesab edilən əsas problemlərdən biri qədim türk söz köklərində uzanma faktının olub-olmamasıdır. Həmin problem haqqında bir əsrdən artıqdır ki, mübahisələr gedir, konkret fikir yoxdur. Türkoloqlar bu məsələ ilə bağlı yekdil rəyə gələ bilməmişlər. Əski türk abidələrində uzun hecalı kök sözlərə rast gəlinir. Xüsusilə, qədim uyğur yazılarında həmin hadisənin izləri müşahidə edilir. Buna görə də bu hadisə türkologiyada ilkin uzanma adlandırılır.

Türkoloq O.N.Bötlinq yakut dilində ilkin uzanma faktını öyrənmiş, digər türk dillərində həmin uzun saitlərin qısa saitlərə uyğun gəldiyini müəyyənləşdirmiş, türkologiyada ilk dəfə olaraq, kök morfemlərdə ilkin uzanma hadisəsinin varlığı ideyasını irəli sürmüşdür [6, s.157-166; 105, s.18]. Bu hadisənin qədim dövrdə mövcudluğunu inkar edən dilçilər də var. Türkologiyada bu məsələ haqqında iki əsas fikir mövcuddur: 1) O.N.Bötlinq ilkin söz köklərində uzanmanın mövcudluğunu təsdiq edir; 2) V.V.Radlov isə bunu tam inkar edir. Hər iki fikrin tərəfdarları var. O.N.Bötlinqin tərəfdarları qədim türk abidələrindəki və müasir türk dillərindəki faktlara əsaslanırlar. İlkin uzanmanın yaranması, mənşəyi haqqında fikirlər də ziddiyyətlidir. K.Qrönberq qədim türk dilində uzanma hadisəsinin varlığını qəbul etmir [10, s.59]. Halbuki müasir yakut, türkmən, xalac, qaqauz, qırğız dillərində, xakas, şor dillərinin bəzi dialektlərində ilkin uzanma hadisəsi mühafizə edilmişdir.

M.Rəsənen konkret dil faktları ilə sübut edir ki, türk dillərinin ilkin köklərində uzanma olub və bu əksər halda sıxılma hadisəsinin və yaxud monqol dillərinin təsiri nəticəsində yaranmışdır [14, s.66]. A.M.Şerbakın fikrincə, "*ilkin uzanma hadisəsi protodilə aid olduğuna görə ümumtürk hadisəsidir"*. O, bu hadisəni hecaların daxili strukturunun inkişafı ilə əlaqələndirir [18, s.48]. T.Təkin qədim türk dilində 475 kök və gövdənin uzun variantda işləndiyini təsbit etmişdir [5, s.171-186]. Bəzi türkoloqlar bu problemə Altay dilləri aspektindən yanaşmışlar. G.Klauson və F.İshakov qədim türk dilində ilkin uzanmanın varlığı fikrinə tərəfdar çıxırlar. A.fon Qaben də vaxtilə ilkin uzanmanın mövcudluğunu qəbul edir. O, yazır ki, uyğur abidələrində saitlərin iki cür yazılması qədim türk dilində saitlərdə uzanmanın mövcudluğunu ehtimal etməyə əsas verir [4, s.33]. M.Rəsənen də qədim türk dilində uzanma faktının varlığını təsdiqləyir. Onun fikrincə, "*ilkin uzanma təkhecalı söz köklərində məhz türkmən və yakut dilləri ilə yanaşı, çuvaş dilində də mühafizə edilmişdir"* [14, s.61-63]. B.M.Nadelyayev isə ilkin uzanmanı substrat hadisəsi hesab edir. Onun fikrincə, "*yakutların əcdadları türk mənşəli olmamışdır, buna görə də onların dilindəki uzanma substrat xarakterlidir. Türkmən dilində də həmin hadisə baş vermişdir"*. K.Qrönberqin fikrincə, "*türk dillərində ilkin uzanma tarixən aksentləşmə"*, V.V.Radlovun fikrincə, "*səs birləşmələrinin, səs reflekslərinin vokalizasiyası və sıxılması nəticəsində sonradan yaranmışdır"* [10, s.58-69].

Qədim türk dilində ilkin uzanmanın varlığını İ.A.Batmanov da təsdiqləyir. İ.A.Batmanov yakut və türkmən dillərindəki uzanmanı qədim dil faktı kimi xarakterizə edir və göstərir ki, "*ehtimal ki, yazılı mənbələrdə qeyd olunmasa da, V-VIII əsrlərdə oğuz dilinin bir qolu olan kurıkanların dilində qədim uzanma faktı var*" [8, s.7]. O.N.Tuna da qədim uyğur yazılarındakı kök sözlərdə ilkin uzanmanın müşahidə olunduğunu qeyd etmişdir. A.N.Kononov ilkin uzanmanın mövcudluğunun Orxon-Yenisey yazılarındakı qrafikaya əsasən sübut edildiyini göstərir. G.Dörfer xalac türkcəsindəki ilkin uzanmanı protodilin əlaməti kimi səciyyələndirir. Göründüyü kimi, türkoloqların əksəriyyəti qədim türk dilində ilkin uzanma faktını qəbul edir. Həmin fikirlər real dil faktlarına əsaslanır. Azərbaycan dilçiliyində ilkin uzanma hadisəsinin mahiyyətindən A.H.Vəliyev, M.İ.Yusifov və Ə.Ə.Rəcəblinin araşdırmalarında bəhs edilmişdir. A.H.Vəliyev bu qənaətə gəlir ki, "*keçid şivələrimizdə təsadüf edilən uzun saitlər artıq fonem əhəmiyyətinə malik olmayıb, uzun səs variantı kimi özünü göstərir"* [2, s.52]. Ə.Ə.Rəcəbli qədim türk yazılı abidələrində ilkin uzanmanın olmasını və onun fonematik əhəmiyyət kəsb etməsini təkzib edir [1, s.93].

Türkologiyada ilkin uzanma mövzusu ilə bağlı müxtəlif tədqiqatlar aparılmış, fərqli fərziyyələr irəli sürülmüş, yekdil fikir əldə edilməmişdir. Biz digər türkoloqlardan fərqli olaraq bu prosesə sırf fonetik hadisə kimi deyil, morfonoloji proses kimi baxırıq, çünki türk dillərinin ilkin mərhələsində həmin proses derivatoloji funksiya daşımışdır. Ən qədim fonetik hadisələrdən sayılan ilkin uzanma hadisəsi müasir türkmən və yakut dilləri ilə yanaşı, xalac türkcəsində də sistemli şəkildə qorunmuşdur. Təkhecalı söz köklərində indiyə qədər mühafizə edilən ilkin uzanma

prototürk dilinin xüsusiyyətərindən biri kimi fonematik mahiyyətli hadisədir. Yəni qədim dildə leksemlərin məhdudluğunu nəzərə alsaq, bu hadisə söz yaradıcılığı üsulu kimi də çıxış etmişdir. Fikrimizcə, ilkin uzanma hadisəsini qədim türk söz kökündə morfonoloji və derivatoloji səciyyə daşıyan hadisə kimi dəyərləndirmək lazımdır. Türk dillərində anlaut problemini şərh edən N.Z.Hacıyeva da ilkin uzanmanın söz köklərində fonematik dəyişmə yaratması ideyasını qəbul edir . E.D.Polivanovun fikrincə, *"pratürk uzanmasını rekonstruksiya etmək üçün türkmən-yakut uyğunluqlarını nəzərə almaq lazımdır"*. O, ilkin uzanmanı tam inkar etməsə də, yakut dilindəki uzanmanın söz kökündə sonrakı samitin cingiltiləşməsinin təsiri ilə yarandığını ehtimal edir [15, s.124]. Müasir yakut dilində təkhecalı kök sözlərdə ilkin uzanma hadisəsi mühafizə olunmuşdur: *ū* "su", *āt* "at", *āt* "ad, san".

Bəzi türkoloqlar qədim yazılı abidələrdə bu hadisənin mövcudluğunu əlifba məsələsi ilə izah edir və ərəb əlifbası ilə yazılmış abidələrdə qrafik xüsusiyyətlərlə bağlı olaraq, eyni saitlərin ikili işarələnməsinə yol verildiyini ehtimal edirlər. Yakut dilinə yaxın olan dolqan türkcəsində də qədim köklərdə uzanma hadisəsi müşahidə olunur. Məsələn: *ut-* "göndərmək" . Bir çox türk dillərində uzanma fonematik məna kəsb edir, yəni söz köklərində məna fərqi yaradır: xak. *sın* "maral" - *sın* "həqiqət", *aas* "ağız" - *as* "taxıl", *aal* "kənd"- *al-* "götürmək", *püür* "canavar" - *pür* "ağac yarpağı", *xaar-* "qızartmaq" - *xar* "qar". N.A.Baskakov xakas dilində olan bu uzanma faktlarını ikinci uzanma hadisəsinə aid edir. Onun fikrincə, *"xakas dilində ilkin uzanma ancaq bir sözdə qalmışdır: ööt- "yandırmaq"* [7, s.19]. İlkin söz köklərinin polisintetikliyini nəzərə alsaq, ilkin uzanmanın söz yaradıcılığı vasitəsi olması fikri realdır. V.İ.Rassadin qeyd edir ki, *"tofalar dilində uzanma faktı fonematik əhəmiyyət daşıyır: al- "almaq" - a:l "kənd", qas "qaz" - qa:s "bəzək", ol "o" - o:l "oğul, oğlan", hol "göl" - ho:l "ürək", bar- "getmək" - ba:r "qaraciyər*" [13, s.19]. Müqayisə üçün qeyd edək ki, monqol dilində də uzanma semantik fərq yaradır: *ör* "borc" - *öör* "başqa, digər", *ul* "ayaqaltı, özül, dib" - *uul* "dağ", *tos* "yağ" - *toos* "toz", *em* "dərman" - *eem* "çiyin". Monqol dialekt və şivələrində də bu proses müşahidə edilir: *der* "döşəkçə" - *dēr* "yuxarı", *bol* "olmaq" - *bool* "qul", *xol* "uzaq" - *xool* "qida". Eyni vəziyyət Altay dillərinə aid olan koreya dilində də mövcuddur: *nun* "göz" - *nuun* "qar", *kil* "yol" - *kiil* "uzunluq", *mal* "at" - *maal* "söz", *san* "dağ" - *saan* "sağlam". Deməli, Altay dillərində bu hadisə geniş yayılmışdır.

Orxon-Yenisey abidələrində ilkin uzanma faktları var: *oot* "od, atəş" , *yuu-* "yumaq", *yuuz* "üz", *yiil* "yel, külək", *aaç-* "ac olmaq", *aat* "ad", *aart* "dağ keçidi", *kaal-* "qalmaq" , *baa-* "bağlamaq" . Əski uyğur abidələrində aşağıdakı sözlərdə ilkin uzanma müşahidə edilir: *oot* "od, atəş", *süü* "qoşun, ordu", *toon* "don" , *tüü* "saç", *yüüz* "üz", *yüü* "öz", *yuul* "çay", *yiig* "yaxşı", *yiil* "yel". Qədim uyğur dilinin faktları bir daha sübut edir ki, əski türk dönəmində bu hadisə mövcud idi. Müqayisə üçün göstərək ki, Baltik və slavyan dillərində də ilkin köklərdə uzanma olmuşdur. Hətta protoslavyan söz köklərinin rekonstruksiyasında söz köklərinin bir qismi uzun variantda bərpa edilir. Düzdür, əks arqumentlə çıxış edən dilçilər də var. Hind-Avropa və german dillərində sözün strukturunu öyrənən E.A.Makayev iddia edir ki, *"həmin dillərdə uzanan saitlər qədim deyil, sonrakı hadisədir"*. Əski uyğur yazısında, yəni brahmi əlifbasında uzun və qısa saitləri ifadə edən ayrı-ayrı hərflər olmuşdur. Həmin fakt da bir daha qədim türk dilində uzun saitli kök morfemlərin mövcudluğunu təsdiqləyir. Adətən, türkologiyada bir çox sözlərin arxetiplərinin bərpasında ilkin forma kimi uzun variantlar əsas götürülür. E.V.Sevortyanın etimoloji lüğətində, A.M.Şerbakın türk dillərinin fonetikası ilə bağlı araşdırmalarında bu halı müşahidə etmək mümkündür. A.M.Şerbak qədim türk dilində 8 adi, 8 uzun saitin olduğunu ehtimal edir [18, s.40-60]. Türk dillərindəki ilkin uzanma hadisəsinin səbəbi G.J.Ramstedt və K.N.Menqes tərəfindən heca kompensasiyası nəzəriyyəsi ilə izah olunmuşdur. Monqol dillərinə aid bir çox ikihecalı söz kökləri analoji olaraq türk dillərində təkhecalı söz köklərinə uyğun gəldiyindən G.J.Ramstedt iddia etmişdir ki, guya "türk dilləri həmin ikihecalılığı kompensasiya etmək üçün uzanma hadisəsi yaranmışdır". K.N.Menqesin fikrincə, "ilkin uzanma ən qədim hadisə olmayıb, ümumtürk mənşəlidir". Onun fərziyyəsinə görə, bu uzanma ikihecalı köklərin birinci hecanın əvəzedici uzanması vasitəsilə təkhecalı sözə çevrilməsi nəticəsində təşəkkül tapmışdır. O da G.J.Ramstedt kimi, ikihecalı monqol söz köklərini daha qədim hesab edirdi. M.Rəsənen isə ikinci hecanın ixtisarı ilə ilk hecanın əvəzedici uzanması

fikri ilə razılaşmır [14, s.50-51]. N.A.Baskakov *CVC* tipli kök morfemlərdə uzun saitlərin mövcudluğunu axırıncı samitin kompensasiya refleksi ilə izah etmişdir [7, s.30].

Bu hadisənin tarixi çox qədimlərə gedib çıxır, çünki öncə də qeyd etdiyimiz kimi, əski türk yazılı abidələrində həmin fakt müşahidə olunur. Y.Nemet bu hadisəni, yəni təkhecalı söz köklərindəki uzanmanı çoxhecalılığın ixtisarı və aksentləşmə nəzəriyyəsi ilə izah edir . V.M.Nasilov yazır ki, “*qədim türk dilində uzun saitlərin məna fərqi yaratması məsələsi türkologiyada hələ də həll olunmayıb”* [11, s.9]. Halbuki qədim dil faktları göstərir ki, ilkin uzanma kök sözlərdə söz yaradıcılığına xidmət etmiş, omonim köklərin yaranmasına səbəb olmuş, sinkretik kökləri fərqləndirmişdir. Fikrimizcə, ilkin uzanma protodilin söz yaratma ehtiyacından yaranmışdır. “Sonrakı uzanma”, yəni ikinci uzanma adlanan fonetik hadisə isə əksər türk dillərində müşahidə edilir, həmin hadisənin əsas səbəbi səsdüşümüdür. Məsələn, uyğur dialektlərində işlənən *oo* (“ov”) sözü *v* samitinin, qırğız dilində işlənən *puu* (“buğ”) sözü *ğ* samitinin, *aloo* (“alov”) sözü *v* samitinin, qaqauz dilində işlənən *baa* (“bağ”) forması *ğ* samitinin reduksiyası nəticəsində təşəkkül tapmışdır.

A.T.Kaydarov türk dillərində uzanma hadisəsinin yeni köklərin təşəkkül tapmasına, kök sözlərin variantlılığının yaranmasına səbəb olduğunu qeyd edir [9, s.102-105]. M.İ.Yusifov, haqlı olaraq, qeyd edir ki, “*ilkin uzanma zamanı saitin xüsusi fonem kimi çıxış etməsi onu göstərir ki, dilin qədim dövrlərində fonetik söz yaradıcılığı prosesində səs uzanması da məna fərqləndiricilik üçün səciyyəvi əlamət olmuşdur...İlkin uzanmanı aradan çıxması ilə kök morfemlərdə omonimlik baş verməsinə zəmin yaranmışdır”* [3, s.53].

**Nəticə:** Yazıyaqədərki kök dildə – prototürkdə supraseqment vahidlər (yəni səsin tonu, tembri, intonasiya, vurğu) fonematik funksiya daşımışdır, o zaman ilkin söz köklərində bu hadisənin mövcudluğu və söz yaradıcılığı üsulu kimi çıxış etməsi şübhə doğurmamalıdır. Qədim türk dilində ad - feil omonimliyini fərqləndirmək üçün də ilkin uzanmadan istifadə olunmuşdur. Məsələn, *tāt- // dāt-* “dadmaq” - *tat // dad* “dad, ləzzət” [5, s.67]. Müasir türk dillərində də bu izlər qorunmuşdur. Təsadüfi deyil ki, türkologiyada kök sözlərin bir qisminin arxetipi, yəni praforması uzun variantda rekonstruksiya edilir. Beləliklə, biz ilkin uzanmanı qədim türk sözünün əlaməti kimi qəbul edirik.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Rəcəbli, Ə.Ə. Göytürk dilinin fonetikası / Ə.Ə.Rəcəbli. – Bakı: Nurlan, – 2004. – 414 s.
2. Vəliyev, A.H. Azərbaycan dilinin keçid şivələri / A.N.Vəliyev. – Bakı: Elm, – 2005. – 335 s.
3. Yusifov, M.İ. Azərbaycan dili fonetikasının əsasları / M.İ.Yusifov. – Bakı: Elm və təhsil, – 2012. – 320 s.
4. Gabain, Von A. Eski Türkçenin Grameri / A. Von Gabain. – Ankara: Türk Tarih Kurumu Basımevi, – 1988. – 313 s.
5. Tekin, T. Türk Dillerinde Birinci Uzun Ünlüler / T.Tekin. – Ankara: T.C.Kültür Başkanlığı, Simurg, – 1995. – 192 s.
6. Бётлингк, О.Н. О языке якутов / О.Н.Бётлингк. – Новосибирск: Наука, –1989. – 644 с.
7. Грамматика хакасского языка / Под.ред. Н.А.Баскакова. – Москва: Наука, –1975. – 418 с.
8. Древние тюркские диалекты и их отражение в современных языках / Под.ред. Т.А.Бертагаева. – Фрунзе: Илим, – 1971. – 196 с.
9. Кайдаров, А.Т. Структура односложных корней и основ в казахском языке / А.Т.Кайдаров. – Алма-Ата: Наука, – 1986. – 328 с.
10. Мамедов, А.М. Древнетюркская акцентуация и некоторые вопросы развития фонологических систем тюркских языков // – Баку: Советская тюркология, –1970. №5, – с.58-69.
11. Насилов, В.М. Древнеуйгурский язык / В.М.Насилов. – Москва: Издательство восточной литературы, – 1963. – 121 с.

12. Покровская, Л.А. Грамматика гагаузского языка. Фонетика и морфология / Л.А.Покровская. – Москва: Наука, – 1964. – 298 с.
13. Рассадин, В.И. Фонетика и лексика тофаларского языка / В.И.Рассадин. – Улан-Удэ: Бурятское книжное издательство, – 1971. – 250 с.
14. Рясянен, М. Материалы по исторической фонетике тюркских языков/ М.Рясянен. – Москва: Издательство иностранной литературы, –1955. – 221 с.
15. Сравнительно-историческая грамматика тюркских языков. Фонетика / Под ред. Э.Р.Тенишева. – Москва: Наука, – 1984. – 484 с.
16. Черкасский, М.А. Тюркский вокализм и сингармонизм (Опыт историко-типологического исследования) / М.А.Черкасский. – Москва: Наука, – 1965. – 141 с.
17. Щербак, А.М. О происхождении первичных долгих гласных в тюркских языках // – Москва: Вопросы языкознания, –1967. № 6, – с. 35 – 47.
18. Щербак, А.М. Сравнительная фонетика тюркских языков / А.М.Щербак. – Ленинград: Наука, – 1970. – 203 с.
19. Clauson, G. An Etymological Dictionary of Pre-Thirteenth-Century Turkish / G.Clauson. – Oxford: At the Clarendon Press, –1972. – 989 p.
20. https://altaica.ru/LIBRARY/POPPE/poppe_etym1925.pdf

***Баба Магеррамли***

***Корневая морфемология турецких языков***

***Резюме***

В ходе исследования доказано, что фонетическое явление, называемое в некоторой литературе начальным удлинением, или «этимологическим удлинением», считающееся в тюркских языках самым спорным, представляет собой деривационный процесс. Обычно исследователи скептически относятся к существованию первичного процесса удлинения в древнетюркских языках. В большинстве случаев этот процесс может возникнуть позже. Однако наши исследования доказывают, что процесс этимологического расширения существовал в древнетюркских языках и этот процесс проявлялся и как средство словотворчества. В статье совершается экскурс в историю изучения данной проблемы, анализируются субъективные мнения различных тюркологов по этому вопросу. В исследовании делается вывод, что причиной этимологического расширения являются не экстралингвистические причины, а внутреннее фоносемантическое развитие тюркских языков. Иными словами, языковые факты, широко интерпретируемые в исследовании, доказывают, что в древнетюркский период, когда не было грамматикализации, а точнее, суффиксации в начальных корнях слов, этот процесс играл активную роль как в процессе словотворчества, так и в комбинаторных событиях. Одним из событий, превративших корни слов в новую лексему в древнетюркский период, было событие первоначального удлинения.

***Ключевые слова:*** *турецкий язык, язык, этимология, расширение, словотворчество*.

***Baba Maherramly***

***The problem of etymological lengthening in root morphemes of Turkic languages***

***Abstract***

In the research, it is proved that the phonetic phenomenon called the initial lengthening, or "etymological lengthening" in some literature, which is considered the most controversial in Turkish languages, is a derivational process. Usually, studies are skeptical about the existence of a primary lengthening process in ancient Turkic languages. Most of the time, this process is likely to arise later. However, our research proves that the process of etymological extension existed in the ancient Turkic languages and this process also manifested itself as a means of word creation. The

article excurses the history of the study of this problem, and analyzes the subjective opinions of various Turkologists about this issue. The research concludes that the cause of etymological extension is not extralinguistic reasons, but the internal phonosemantic development of Turkish languages. In other words, the language facts widely interpreted in the research prove that in the ancient Turkic period, when there was no grammaticalization, or more specifically, suffixation in the initial word roots, that process played an active role in the process of word creation as well as combinatorial events. One of the events that turned word roots into new lexemes in the ancient Turkic period was the event of initial lengthening.

***Key words:*** *Turkish, language, etymology, extension, word creation.*

***Çapa tövsiyə edən:*** ***AMEA Nəsimi adına Dilçilik İnstitutu***

***Rəyçilər:*** ***fil.elm.dok. Aynel Məşədiyeva***
***fil.elm.dok. Şəbnəm Həsənli-Qəribova***